# LƏYAQƏT HİSSİ

*(Sənədli hekayə)*



*Rəsul RƏXŞANLI*

Navarrada yüngül atletika üzrə yarış keşirilirdi. İki min on ikinci ilin dekabrı idi. İspaniyaya dünyanın hər güşəsindən güclü idmançılar gəlmişdi. Yarışın mükafat fondu böyük idi. Üç min metr məsafəyə qaçış yarışında yol kənarı adamlarla doluydu. Onların arasında Abel Mutiy adlı zəncinin azarkeşi az deyildi. Keniyalı idmançı London Olimpiya oyunlarının bürünc medalçısı olmuşdu. Bu yarışda isə ondan güclüsü olmadığını güman edən tamaşaçıların əksəriyyəti ondan qələbə gözləyirdi, onu qızıl medala layiq bilirdi. Abel qaçış yolu kənarında görünəndə azarkeşləri arasında canlanma başladı. Tamaşaçılardan hay-küs salıb əllərini yelləyənlər kim, fit çalanlar kim. Atletlər arasında tanınmış yerli qaçıcı da vardı. O, beş min metrə qaçışda İspaniya çempionu İvan Fernandes Anayya idi. Onun qələbəsini gözləyənlər və istəyənlər də kifayət qədər idi. Anayya gözə dəyəndə onlar səs saldılar. Qaçışa çıxmış və start xəttində fit səsini gözləyən idmançıların hamısı özünə inamlı görünürdü. Fit çalındı, qaçış başlandı. İlk anlarda toplum halında hərəkət edən idmançılar arasından sonrakı dəqiqələrdə kimlərsə sıçrayaraq önə keçirdi. Daha sonrakı dəqiqələrdə isə öndə gedənlərin arası seyrəlirdi. Seyrək haldakı idmançıların sayı da getdikcə azalırdı. Həmin bu azalmışların arasındakı irəlidə gedənlərin biri Abel Mutiy idi. Azarkeşləri əllərini yelləməklə, yaxud əllərindəkiləri havada oynatmaqla onu dəstəkləyirdi. Digər id-mançlara da əl yelləyənlər vardı. Lakin idmançıların fikri yolda və gördüyü işdə olduğundan azarkeşlərini görmürdü. Daha bir müddət ötdü və Abelin arxasınca qaçaraq təqib edənlərdən biri qaldı. O, ispan Anayya idi. Abel ilə onun arasındakı məsafə fərqi böyük deyildi. Hər ikisi yaxşı sürətlə qaçırdı, qızıl medala güvənirdi. Bir müddət bir-birinə yaxın məsafədə qaçsalar da daha uzun yol qət etdikcə onlar həm də bir-birindən uzaqlaşırdı. İdmançılar döngəni keçdi. Buradakı tamaşaçılar əllərini qaldırıb havada yellədi. Öndə zənci qaçırdı, arxasındakı Fernandesi bəziləri tanıdı. Aralarındakı məsafə fərqi böyük deyildi. Bəziləri tanınmış Mutiyə əl çalırdı. Hansılarsa həmyerlisinin əcnəbini ötməsini istədiyindən məhz onu alqışlarıyla həvəsləndirməyə çalışırdı. Qaçış məsafəsi boyunca yol kənarına çəkilmiş çəpərin arxasına, hündür ağaclar altına yığışmış tamaşaçılar çox idi. Yağış yağmırdı, külək əsmirdi. Tamaşaçılar arasında zənci qaçıcı Abeli dəstəkləyənlər yolboyu vardı. Onun diqqəti işinə, məqsədinə yönəldiyindən ətrafdakılara baxmırdı, onların dəstəyindən xəbərsiz idi. Gördüyü ayaqları altındakı hamar qaçış yolu idi, bir də tamaşaçıların arxasındakı hündür və yaşıl ağaclar. O, lazım bildiyi qüvvə ilə qaçırdı. Arxasınca təkcə gələn Fernandes də təxminən onunla eyni sürətlə irəliləyirdi. Yolun uzun, düz hissəsində finişə doğru qaçan idmançıların hamısı tamaşaçıların gözləri qarşısında idi. Öndəki zənci inamla irəliləyirdi və birinciliyi kiməsə verməməkdə qətiyyətli idi. İkinci qaçaraq onu təqib edən ispan atleti gücü qaldığına əmin olduğundan zəncini ötəcəyinə ümid bəsləyirdi. Lakin onlar qaçdıqca finişədək olan məsafə azalsa da aralarındakı fərq artırdı. Bu isə Abeli sevindirsə də Fernandesi qətiyyən razı salmırdı. Üç minlik yolun əksər hissəsi qət edilmişdi. Az qalırdı finişə, bəlkə də yüz-yüz əlli metr olardı. Artıq ispaniyalı daxilən hiss edirdi ki, Abelə çatmağa və onu ötməyə gücü qalmayıb. Yox, qızıl medalı İspaniya üçün ala bilməyəçək. Zənci balasının qələbəsi gün kimi aydındı və qaninidir, çünki o güclüdü, açıq-aydın. Qızıl medal Afrikara ucacaq. Finişin yaxınlığındakı yol kənarında toplaşmış tamaşaçıların alqışları da irəlidə tək qaçan və arxasındakı rəqibindən kifayət qədər aralanmış Abelə ünvanlı idi. Bunu Abel də, Fernandes də anlayırdı. Lap azca qalmışdı finişə. Bu iki atlet arasındakı fərq olardı on metr, çox olmazdı. Belə məqamdakı bu qədər fərq böyük üstünkük sayılırdı. Buna baxmayaraq Fernandesin fikrindən var gücünü toplayaraq rəqibini ötmək keçdi. Daxilən buna cəhd etməyə səy göstərsə də gücü, fiziki imkanı qalmamışdı, finişə çatmağa bəs edəcəkdi. Üç min metr məsafəyə qaçmaq adamın canını alır. Bu həqiqətdir və özünü aldatmağın yeri yoxdur.

Artıq finiş xətti də, lenti də göz qabağındaydı, qarşıdakı məsafə olardı vur-tut bir neçə metr. Kameralar, fotoaparatlar onlara tuşlanmışdı, çəkiliş başlanmışdı. Repartyorların başlıca məqsədi finiş xəttini birinci keçəni çəkmək idi. Bu anda afrikalı idmançı ayaq saxladı. Xətti keçdiyini düşünüb, ətrafına diqqət yetirmədiyindən yəqin ki. Abel onu alqışlayanlara əl elədi. Fernandes ona çatırdı. Dedi ki, dayanmasın, finiş xəttinə azacıq da ol-sa hələ var. O isə ispanca başa düşmürdü. Azarkeşləri də öz dilində deyir, əl-qol hərəkətlərinin işarəsiylə azca da qaçmaq gərək olduğunu başa salmağa cəhd edirdi. Yol boyu öndə olmuş Abelin çaşqınlıqdanmı, yorğunluq-danmı, ya da sayıqlığı itirdiyindənmi finiş xəttinin lap astanasında layiq olduğu qızıl medaldan məhrum olmasını azarkeşləri istəmirdi. Abeli uzun müddət təqib etmiş Fernandes ona çatdı və onu itələdi. Zənci atlet rəqibinə mat-məttəl baxdı. O, hələ də nə baş verdiyini dərk eləmirdi. Fernandes isə onu itələməkdə davam elədi və finiş xəttindən birinci keçirdi. Özü ondan sonra keçdi. Tamaşaçılardan gurultulu alqış sədaları qopdu. Təbii ki, alqışların bir hissəsi çempionun ünvanına idisə, digər hissəsi çempionluğu öz əlləriylə ona verənin ünvanı-naydı. Abel indi ayıldı, nələr baş verdiyini dərk elədi, mat-məttəl rəqibinə baxdı. Axı bu necə rəqibdir?

Abelin qızıl medala layiq görülməsi azarkeşlərini razı salmışdı, bu aydındı, təbiidi. Üzücü olmuş uzun-uzadı yolun böyük hissəsində məhz o öndə qaçırdı. Üstəlik də arxasınca qaçaraq onu təqib edən atletdən bəs edə biləcək qədər irəlidə olmuşdu. Lakin nəticə onun rəqibi Fernandesi də razı salmışdı, onun üzünün xoş ifa-dəsindən aydın idi. Bu isə tamaşaçıların hamısına da olmasa müəyyən hissəsinə qəribə görünürdü. Axı hansı düşüncəsiz, bəlkə də axmaq qızıl medalı öz əlləriylə götürüb rəqibinə verə bilər? Niyə də verməlidir? Təbriklər başa çatmamışdı. Yarışı işıqlandırmağa gəlmiş idman jurnalistlərindən biri ispan qaçıcısı, boylu-buxunlu və yaraşıqlı Anayyanı dərhal sorğu-suala tutdu. Təəccüblə verdiyi ilk sualı bu oldu: – Siz niyə belə etdiniz? İyirmi dörd yaşlı Vitoriyalı idmancı fikrini açıq söylədi: – Mənim arzum nə vaxtsa bir cəmiyyətdə yaşamaqdır. – Niyə siz keniyalıya qalib gəlməyə imkan verdiniz? Anayya inamla: – Mən ona imkan vermədim, o mənsiz də qalib gəlmişdi. Mənə ləyaqətimi qoruyub saxlamaq qızıl medalı beləcəsinə udmaqdan daha vacibdir, - deyəndə jurnalist ona qəribə baxdı, o isə davam elədi, - o uzun müddət məndən irəlidə qaçmışdı, aramızdakı məsafə fərqi böyük idi. O səhv etməsəydi mən qalib gələ bilməzdim. Mən qalib gəlməyi olduqca istəyirdim, amma buna layiq deyildim. Abel yol boyu qətiyyətlə liderlik eləyirdi. Jurnalist təkid elədi: – Siz onun əvəzinə yarışı uda bilərdiniz! Bu halda Anayya suala özünün suallarıyla cavab verdi: – Bəs mənim qələbəmin dəyəri nəyə bərabər olacaqdı? O medalın ləyaqəti necə olacaqdı? Nə düşünəcəkdi mənim anam? Bilirsizmi, biz futbolda, cəmiyyətdə, siyasətdə nələr baş verdiyini tez-tez görürük. Biz tez-tez düzgün olmayan modelli yanaşmalarla rastlaşırıq. Şadam ki, mən fərqli düşünmüşəm, ləyaqətli hərəkət eləmişəm. Hətta, Avropa çempionatına İspaniya yığma komandası tərkibində getməli olduğum halda yerimi itirməli olsaydım, yenə belə hərəkət edərdim. Yol kənarında qurulmuş çəpəri aralayıb keçən tamaşaçılar idmançıların ətrafına toplanmışdı. Bir dəstəsi qızıl medalın sahibi, ağır yorğunluqla qalib sevincini yaşayan Abeli təbrik edirdi. Jurnalistlə Fernandesin söhbətinə diqqət yetirənlər də çox idi. Azarkeşlərin düşüncələri, qənaətləri haçalanırdı. Kimlərsə Fernandesi mənəviyyatlı ailənin övladına oxşadır, ədalət hissinə malik, xeyirxah ruhda tərbiyələnmiş, normal adam sayırdı. İdmançı şərəfini qoruduğunu, böyük ürəyi olduğunu dəyərləndirirdi. Başqaları isə bu yaraşıqlı gənci öz xeyrini anlamayan, ruhi problemi olan adam bilirdi. Yaranmış məqamdan faydalanıb qızıl medalı ələ keçirmək əvəzinə özünü nəcib sifətində gözə soxmaq məqsədini üstün tutan səfeh kimi qəbul edirdi. Sanki röyadan ayılmış yeddi nömrəli keniyalı idmançı Abel Mutiy hələ də təbrikləri qəbul edir və eşitdiklərini bilməsə də mənasını anladığından minnətdarlığını bildirirdi. O, tər içindəki İvan Fernandes Anayyaya maraqla baxırdı. Onun qara gözlərindəki saf baxışında təəccüb hissiylə minnətdarlıq hissi çulğalanmışdı. Suallarını bitirən jurnalist təəccüblə süzdüyü yaraşıqlı gəncdən baxışlarını çətinliklə çəkib aralandı. O, gənci hələ də anlaya bilmədiyindən düşüncələr içində idi. Bəlkə də onu qınayırdı. Bəlkə də bu halda özü necə hərəkət edəcəyini aydın və dəqiq müəyyənləşdirməyi bacarmadığından cavab axtarırdı. Hey düşünürdü.” Nə düşünəcəkdi mənim anam?” sualını xatırlayıb bəlkə də öz-özünə deyirdi ki, dəyərlər nəsildən-nəslə ötürülür...

***İyun, 2020***